**Coşqun Nizami oğlu Quliyev** [128]

# İSMİN MƏNSUBİYYƏT KATEQORİYASININ TƏDRİSİ
## (İlyas Əfəndiyevin "Söyüdlü arx" romanı əsasında)

**Giriş.** İnkişaf edən cəmiyyətdə təhsil sahəsi də bu inkişafdan geri qalmır və yeniliklər təhsil sahəsində də özünü göstərir. Belə ki, təhsil sahəsində yeni proqram və dərsliklərin, metod və vasitələrin istifadə olunması ölkəmizin dünya təhsil sahəsinə inteqrasiyasının bir nəticəsidir. Ümumtəhsil məktəblərində hal-hazırda fəal-interaktiv təlim üsulundan istifadə olunur. Fəal-interaktiv üsulunda əsas bilik mənbəyi müəllim deyildir. Burada müəllim fasilitator (bələdçi), şagirdlər isə tədqiqatçı mövqeyində iştirak edirlər. Bunun əsas səbəbi şagirdlərin müstəqil axtarıb-araşdırma bacarığının formalaşdırılmasından irəli gəlir. Belə ki, şagird müəllimin dediyinindən daha çox öz əməyinin məhsulunu daha yaxşı və tez qavrayır. Fəal-interaktiv təlimdə şagirdlərin həm idraki, həm psixoloji, həm də onların yaradıcı qabiliyyətlərini formalaşdırmaq əsas şərtdir. Müəllimin fasilitator mövqeyində çıxış etməsi şagirdləri dərsə təhrik etmək, onlarda dərsə maraq yaratmaq, həmçinin müstəqil tədqiqatçılıq bacarığı aşılamaqdan ibarətdir. Müəllim burada şagirdlərin yaş, anlaq və psixoloji vəziyyətini düzgün təhlil etməli və buna uyğun formada dərsi qurmalıdır.

**Əsas hissə.** Ümumtəhsil məktəblərində morfologiya bölməsindən danışarkən əsasən nitq hissələri və onların təsnifindən bəhs olunur. Nitq hissələri iki yerə bölünür, əsas və köməkçi nitq hissələri. Əsas nitq hissələri içərisində özünəməxsus yeri və kateqoriyaları olan ismin tədrisi zamanı müasir təlim texnologiyalarından istifadə etmək və fəal təlimin əsas tələblərinə uyğun formada şagirdlərə mənimsətmək lazımdır. Belə ki, ismin 4 əsas kateqoriyası vardır ki, bunlardan biri də mənsubiyyət kateqoriyasıdır.

"Mənsubiyyət kateqoriyası iki söz arasında atributiv əlaqə bildirir. Bu kateqoriyanın məzmununda anlayışın tərkibi dərk edilir: yəni mənsubiyyət kateqoriyası şəxs əvəzlikləri ilə ifadə olunan sahib anlayışı və isimlə ifadə olunan mənsub əşya anlayışından ibarət olur" [4, s. 39].

Mənsubiyyət kateqoriyasına müxtəlif formada təriflər verilsə də ümumi şəkildə sahib şəxs və mənsub əşya arasında olan əlaqədir. Fəal təlimin mərhələlərinə əsasən ilk növbədə sinfin təşkili və motivasiya qurulmalıdır. Motivasiya qurarkən " Anlayışların çıxarılması" metodundan istifadə edərək yazı taxtasında cədvəl çəkirik və bu anlayışların hansı mənanı ifadə etdiyini şagirdlərdən soruşuruq:




Şagirdlərin cavablarından sonra biz düzgün cavabı yəni,  onlara söhbətin mənsubiyyət kateqoriyasından getdiyini qeyd edirik.  Mənsubiyyət kateqoriyası sahib şəxs və mənsub əşya arasında olan əlaqələr əsasında formalaşır. Şagirdlərin diqqətinə çatdırırıq ki mənsubiyyət şəkilçili söz özündən əvvəl ismin yiyəlik hal şəkilçili söz tələb edir. Mənsubiyyət kateqoriyası şəxsələr üzrə aşağıdakı kimi dəyişir: Birinci şəxsin təkində -ım, -im, -um, -üm, -m, cəmində -ımız, -imiz, -umuz, -ümüz, saitlə bitən sözlərə isə -mız, -miz, -muz, -müz, ikinci şəxsin təkində -ın, -in, -un, -ün, -n, cəmində -ınız, -iniz, -unuz, -ünüz, saitlə bitən sözlərdə isə -nız, -niz, -nuz, -nüz, üçüncü şəxsin təkində və

[128] Lənkaran Dövlət Universitetinin magistrantı. quliyevcosqun305@gmail.com

cəmində -ı, -i, -u, -ü, saitlə bitən sözlərdə isə -sı, -si, -su, -sü şəkilçiləri vasitəsi ilə düzəlir. Şagirdlərin diqqətinə onu da çatdırırıq ki, mənsubiyyət şəkilçili söz ismin adlıq halında sayılır və ona müxtəlif hal şəkilçiləri artırıla bilər.

Motivasiya mərhələsindən sonra tədqiqatın aparılması üçün sinfi 4 qrupa bölürük və bununla da fəal təlimin ikinci mərhələsi başlayır. Tədqiqatı aparan zaman şagirdlərə tədqiqat sualı veririk və "İlyas Əfəndiyevin "Söyüdlü arx" romanından mənsubiyyət kateqoriyasına aid olan cümlələri seçmək və qruplaşdırma" adlı tapşırıq veririk. Hər bir qrup öz daxilində bu tapşırığa uyğun olaraq iş bölümü edir və tədqiqata başalyır.

**Hədəf qrupu**

a) "İnstitutumuzun *direktoru* nazirə müraciətlə" [3, s. 6]
b) "1918-ci ildə iş üçün Bakıya gələrək,o vaxtdan, bizim *yataqxanamız* yerləşən binanın alt *mərtəbəsində* balaca bir otaqda yaşayırdılar" [3, s. 6]
c) "Təbiətin bu *əbədi ahəngin*ə nə əlavə etdik?" [3, s. 9]

**Elm qrupu**

a) "Mənim cavan *leytenantım,* sən haradan gəlib çıxdın?" [3, s. 10]
b) "Mən ona olan bu yaxınlığımın *səadəti* ilə sərməst idim" [3, s. 11]
c) " Biz motosikli bayırda qoyub,bağçaya girdik və ağacların *arası* ilə gedib böyük kürsülü evin *eyvanına* çıxdıq" [3, s. 13]

**Zəfər qrupu**

a) "Qərənfil bacı bilmirdi ki, mənim *qəlbim* heç zaman mənə şikayət etməmişdir" [3, s. 15].
b) "Nə üçün onun *gözləri* birinci olaraq məhz mənim *baxışlarıma* rast gəldi?" [3, s. 16]
c) "Bəs sizin *adınız* nədir?" [3, s. 16]

**Zəka qrupu**

a) "Bəlkə də, bu kiçik təsadüf ucundan mən ondan kəndlilərin *adını* soruşmağı unutdum" [3, s. 17]
b) "Mən onun *qoluna* girmək üçün özümdə şiddətli bir arzu hiss etdim" [3, s. 18]
c) "Mən sənin *səsində* elə bir mərdlik hiss edirəm ki" [3, s. 18]

Hər bir qrup yazdıqları nümunələri əsaslandırdıqdan sonra növbəti mərhələyə keçid edirik ki, burada şagirdlərin əldə etdikləri informasiyaları bir-biriləri ilə bölüşməyə, mübadilə etməyə başlayırlar. Bu mərhələdə hər bir qrup mənsubiyyət kateqoriyası haqqında bildikləri bütün məlumatı qeyd etməyə başlayır:

**Hədəf qrupu.** Bu qrupun nümayəndələri qeyd edirlər ki, mənsubiyyət şəkilçili sözdən əvvəl ismin yiyəlik hal şəkilçisi qəbul etmiş söz həm müəyyən yiyəlik halda, həm də qeyri-nüəyyən yiyəlik halda ola bilir. Məsələn: "Tələsik *stansiya binasına* girib *kassanın qabağına* getdim" [3, s. 8]. Gördüyümüz kimi, burada birinci nümunədə "stansiya binasına" birləşməsində birinci tərəf qeyri-müəyyən yiyəlik haldadır, ikinci nümunədə isə, yəni "kassanın qabağına" birləşməsində isə birinci tərəf müəyyən yiyəlik haldadır.

**Elm qrupu.** Bu qrupda olan şagirdlər birinci qrupa münasibət bildirərək qeyd edirlər ki, mənsubiyyət şəkilçili söz həm də tək işlənir. Belə ki, cümlə daxilində mənsubiyyət şəkilçili söz özündən əvvəl hal şəkilçisi qəbul etmiş söz tələb etməyə də bilər. Məs., "Mən bütün *arzularıma* həmişəlik vida edib, adi bir kənd klubunda işləməyə gedirdim" [3, s. 7]; "*Tərkimdə* otura bilərsinizmi?" [3, s. 10].

**Zəfər qrupu.** Şagirdlər digər iki qrupun fikirlərinə qulaq asdıqdan sonra öz fikirlərini qeyd edirlər və deyirlər ki, bəzi iki hecalı sözlər var ki, onlara mənsubiyyət şəkilçisi artırılarkən sözün sonundakı heca düşür. Bu hadisə əsl Azərbaycan sözlərində baş verir. Məs., "Mənə elə gəlirdi ki, dünyada zaman, məkan deyilğn şey yoxdur, bizim *ağlımızın* dərk edə bilməyəcəyi əbədi bir boşluq, bir intəhasızlıq var" [3, s. 9]; "İnsafsız, avam bir adam olan əmim arvadı iri mis səhəngi *çiynimə* verib, səhərdən axşama qədər mənə ayaqyalın, başıaçıq su daşıtdırırdı" [3, s. 15].

**Zəka qrupu.** Burada olan şagirdlər digər fikirlərə yekun olaraq qeyd edirlər ki, mənsubiyyət şəkilçisi qəbul etmiş birləşmələrdə həm idarə, həm də uzlaşma əlaqəsi olur. Belə ki, idarə əlaqəsi hal şəkilçisindən asılıdır, yəni hal şəkilçisi varsa idarə əlaqəsi var, uzlaşma əlaqəsi isə mənsubiyyət şəkilçisi vasitəsi ilə yaranır. Məsələn: "Bir *istirahət günü* dörd-beş qız dayanıb rəqsə dəvət olunmağımızı gözləyirdik" [3, s. 15]; "Mən qeyri-şüuri bir hərəkətlə *Muradın böyrünə* qısıldım"[3, s. 20]. Burada birinci nümunədə təkcə uzlaşma əlaqəsi var, ikinci nümunədə isə həm uzlaşma, həm də idarə əlaqəsi var.

Məlumat müzakirəsində isə şagirdlərin bu mövzu ətrafında söylədikləri fikirlərin müzakirəsi aparılır və müəllim də öz fikrini qeyd edir. Belə ki, üçüncü qrupun fikrinə əlavə olaraq "ağıl" sözünün alınma mənşəli olmasını və istisna təşkik etməsini qeyd edir. "Buludxan Xəlilova görə Azərbaycan dilində elə mənsubiyyət birləşmələri var ki, onların ya birinci tərəfi, ya da ikinci tərəfi qayıdış əvəzliyi ilə ifadə olunur" [2, s. 208]. Bu kimi birləşmələrə "Söyüdlü arx" romanında da rast gəlirik: Məsələn: "Onlar mənə *öz qızları* kimi baxırdılar" [3, s. 8].

"Ədəbi dilimizdə belə birləşmələrdən bəhs edərkən Y.Seyidov yazır ki, "öz qızları" kimi birləşmələrin də ikinci tərəfi birinci tərəflə eyniyyət təşkil edir və onu əvəz etmək xüsusiyyətinə malikdir. Lakin bunların ikinci tərfi birinci tərəfə yeni məna gətirmək, birinci tərəfi bu və ya başqa cəhətdən izah etmək məqsədi daşımır. O, daha çox üslubi xüsusiyyət daşıyır, birinci tərəfi nəzərə çarpdırmaq, onu məntiqi vurğulu etmək məqsədilə işlədilir. Bu səbəblərə görə və dildə yığcamlığı mühafizə edib saxlamaq üçün dilimizdə həmin ifadələrdən istifadə olunur" [2, s. 209].

Nəticə olaraq, ümumən, mənsubiyyət kateqoriyasının əsas və asılı tərəflərdən ibarət olması, hımçinin özündən əvvəl yiyəlik hal şəkilçili söz tələb etməsi kimi xüsusiyyətlərini qeyd etmək lazımdır. Mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər ismin adlıq halında sayılır. Bəzən elə olur ki şagirdlər yiyəlik hal şəkilçisi ilə mənsubiyyət

şəkilçisini qarışdıra bilirlər. Çünki hər iki birləşmənin şəkilçisi eynidir. Şagirdlərin daha yaxşı başa düşmələri üçün bu məsələni daha aydın başa salırıq. "Qərənfil bacı bilmirdi ki, *mənim qəlbim* heç zaman mənə şikayət etməmişdir [3, s. 15]. "Mən" əvəzliyinin sonuna artırılan -im şəkilçisi ilə "qəlb" isminə artırılan -im şəkilçisi arasında şəkilcə fərq olmasa da, məzmunlarında çox ciddi fərq vardır. Belə ki, birincisində "mənim" -im yiyəlik hal, ikincisində "qəlbim" mənsubiyyət şəkilçisi vasitəsilə birinci şəxsin təki anlayışı çox aydın təsəvvür edildiyindən mənsubiyyət birləşməsinin birinci tərəfi "mənim" Azərbaycan dilində atıla da bilər. O zaman qəlbim sözü əvəzlik olmadan da "qəlbin" "mənə" aid olduğunu ifadə edər. Əgər biz əşyanın çoxluğunu deyil, şəxsin çoxluğunu nəzərdə tuturuqsa, yəni əşyanın bir neçə şəxsə mənsub olduğunu bildirmək istəyiriksə, o zaman qəlb sözünə həmin şəxsin çoxluğunu bildirən -imiz şəkilçisini artırmalıyıq. Beləliklə, qəlbimiz sözünü əldə edirik ki, bu da qəlbin çoxluğunu deyil, şəxsin çoxluğunu bildirir" [4, s. 41].

Yaradıcı tətbiqetmədə isə şagirdlərə mövzu ilə əlaqədar olaraq tapşırıq veririk ki, "Söyüdlü arx" romanı əsasında 50 sözdən ibarət bir esse yazsınlar. Bunu da yazdıqdan sonra hər bir qrup bir nümayəndə seçir və yazı taxtası qarşısında yazdıqalrı esseni oxuyur və burada olan nümunələri qeyd edirlər. Qiymətləndirmə mərhələsində isə artıq yekun olaraq hər bir qrupa uyğun qiymətlər verilir və dərs yekunlaşır.

**Nəticə.** Beləliklə, dərs müddətincə şagirdlərə mənsubiyyət kateqoriyasını fəal-interaktiv təlimin şərtlərinə uyğun olaraq tədris etdik.. Bu zaman müxtəlif təlim üsullarından və təlim metodlarından istifadə edərək mənsubiyyət şəkilçilərini şagirdlərlə birgə "Söyüdlü arx" romanı əsasında nümunələr seçərək başa vururuq.

Məqalədə mənsubiyyət kateqoriyasının müxtəlif ifadə üsullarından istifadə edərək yaranmasını, həmçinin bir sıra dilçilərin fikirlərindən sitatlar gətirərək qeyd etdiyimiz fikri daha da qüvvətləndirdik.

**İstifadə edilmiş ədəbiyyat**

1. Aranlı M., Yusifova C. Kurikulum. Metodika və Məntiq testləri. Bakı, 2018, 336 s.
2. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. Bakı, 2000, 280 s.
3. Əfəndiyev İ. Söyüdlü arx (romanı). Bakı: Qanun, 2022, 223 s.
4. Hüseyinzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2007, 280 s.

**Açar sözlər:** fəal təlim, əsas və asılı tərəf, tədris, sahib şəxs, mənsubluq, qrup
**Ключевые слова:** активные тренировки, преподавание, владелец, принадлежность, группа
**Keywords:** Affiliation, active learning, main and dependent party, teaching, owner, concerned, group

**Обучение категории принадлежности существительного (на материале романа Ильяса Эфендиева «Сойудлу арх»)**

**Рузюме**

Категория принадлежность обозначает связь и зависимость между человеком, являющимся владельцем, и принадлежащим ему предметом. Суффикс принадлежности изменяется по лицам и в этом случае требует перед собой слово в притяжательный падеж. В процессе обучения можно использовать различные методы и средства. Как известно, в общеобразовательных школах широко используется активное и интерактивное обучение, которое значительно способствует развитию у учеников способности самостоятельно высказывать мнения, а также навыков исследования и научной работы. Кроме того, он включает этапы урока, являющиеся одним из основных условий активно-интерактивного обучения учащихся, и выбранные соответственно методы работы. Разделение класса на группы и размещение в каждой группе учащихся разного уровня также является важным процессом. Также мы даем разные направления в решении поставленных перед каждой группой задач. Задача учителя заключается в том, чтобы сделать доступным то, что ученики не могут найти сами. При обучении категории принадлежности необходимо дать ученикам информацию о её аспектах, суффиксах, способах выражения, а также о синтаксических связях между частями, и предложить им выбрать примеры из романа " Сойудлу арх " и выразить свои мысли."

**Teaching the category of noun affiliation (based on the novel "Soyudlu arx" by Ilyas Efendiyev)**

**Summary**

The category of possession indicates the relationship and dependence between the person who possesses and the possessed object. The possessive suffix changes according to the person, and it requires a word in the possessive case before it. In teaching, various methods and tools can be used. As we know, in general education schools, the active-interactive teaching method is widely used, which greatly contributes to the development of students' independent thinking, research, and investigative skills. In addition, it includes the stages of the lesson, which is one of the main conditions for active-interactive teaching of students, and the work methods selected accordingly. Dividing the class into groups and placing students of different levels in each group is also an important process. We also give different directions in solving the tasks assigned to each group. The teacher's task is to make what the students cannot find accessible to them. When teaching the category of possession in this context, we provide students with information about its aspects, suffixes, expression methods, and the syntactic relationships between the components, and ask them to choose examples from the novel "Soyudlu arx" and express their thoughts based on these.